# Astara Pedaqoji Kolleci

***İngilis dili fənn komissiyasının hazırladığı***

- **DEVELOP TOGETHER ,**

**EDUCATE BETTER……**

- **Birlikdə inkişaf edək, daha yaxşı təhsilləndirək…..**

**SEMİNARI**

- **Mövzu**
- ***İngilis dili dərslərində məzmun xəttləri üzrə effektiv interaktiv təlim metodları***


- *Hazırladı : İngilis dili müəllimi Babayeva Nuranə*


teacher
student
student
Passive method
teacher
student
student
Active method
teacher
student
student
Interactive method

- **Passiv metod** artıq keçmişdə qalmış bir metoddur və bundan demək olar ki,müasir tədrisdə istifadə edilmir. Bu metodda tələbə yalnız dərsə qulaq asır, müəllim danışır.
- **Aktiv metodda** müəllim danışarkən hər hansı bir tələbə də mövzu müzakirəsinə qoşulur  və sinifdə bir aktivlik olur. Aktiv metodda müəllim mövzunu izah edərkən tələbə də öz münasibətini bildirir, suallarını verə bilər və qarşılıqlı şəkildə mövzuya izah olunur.
- **İnteraktiv metodda** mövzunun müzakirəsi zamanı müəllimlə tələbə arasında müzakirə ilə yanaşı, tələbələr arasında da müzkirə olur. Mühazirənin gedişi zamanı artıq tələbələr arasında da müzakirə başlanır.


5%
10%
20%
30%
50%
75%
90%
Lecture
Reading
Audio-Visual
Demonstrations
Discussions
Practice Doing
Teach Others
Passive Learning
Active Learning


INTERACTIVE
TEACHING

# Motivasiya mərhələsi üçün istifadə edilə biləcək metod və üsullar

Dərsin ilk mərhələsində motivasiya xarakterli ən çox işlənən sinif qızdırıcılarıdır ki, bunlara bəzən "buzqıranlar" deyirlər.

**"Buzqıranlar (ice breakers )".** Müəllim bu metoddan sinfi tez ələ almaq, fəallaşdırmaq və gərginliyi aradan götürmək, yeni dil mühiti yaratmaq üçün istifadə edir. "Buzqıranalar"a fiziki hərəkətlərlə oyunlar, iştirakçıların bir-biri ilə tanışlığı, dairədə zarafatlar, komplimentlər daxildir. Bu metoddan istifadə yorğunluğu, dərs prossesindəki mənfi enerjini azaldır. Situasiyadan asılı olaraq onu " Məndən sonra təkrar et" (Repeat after me ), "Mən elə insanlara heyranam ki...", ( I admire such people …. ) "mən kiməm? ( Who am I ? ) ", "Salamlama" (Greeting ), "Tanışlıq" ( Introduction ), "Adlar və xarakterlər" ( Names and characters ) və s. adlandırmaq olar.

# “Adlar və xarakterlər”

“**Adlar və xarakterlər**” - dən istifadə zamanı iştirakçılar öz adlarının baş hərfi ilə başlayan sifətdən istifadə edərək özlərini təqdim edirlər: “ Brave Bahar ”,  “ Smart Sahib “  , “ və s.  Bu strategiya tələbələrin bir-birinə hörmət və inamını inkişaf etdirir, sağlam ünsiyyət  və dəstəkverici şərait yaradır. Bu mərhələdə tələbələr ən çox dinləyib-anlama və danışıq vərdişləri qazanırlar.

## “**Əqli hücum**”. (Brain storming )

Bəzən “Beyin fırtınası” kimi də adlandırılan bu üsulun üstünlüyü ondadır ki, burada təcili sürətdə ümumi məqsədlə bağlı müxtəlif ideyalar yaradılır, əsasən, dərsin motivasiya mərhələsində tətbiq olunur. Bu zaman cavablar bir-birini təkrar etməməlidir. Bu metod istifadə etməklə tələbələrdən verilən mövzu ətrafında ideyalar tez bir zamanda toplanır, siyahıya alınır və ya **“Əqli Xəritə”** ( Mind Map ), **“Hörümçək Toru”** (Spider web ) , **“Salxım”** (Cluster ), **“Balıq sümüyü”** (Fishbone diagram ) üzərində göstərilir. Təkliflər toplanarkən müzakirə və tənqidlər istisna edilir. Bu fəaliyyət növü 5-10 dəqiqə çəkir.

## Dinləyib-anlama (Listening ) bacarıqları formalaşdırmaq üçün istifadə edilə biləcək metod və üsullar

**Dinləyib-anlama bacarıqları avtomatik inkişaf etdirilməlidir. Necə olur olsun, dinləyib-anlama kommunikativ prosesin ən mühüm aspekti olaraq praktikada tətbiq olunmağa ehtiyacı vardır. Dinləyib-anlama fəaliyyəti zamanı müxtəlif produktiv vərdişlər qazanılır. Dinləyib-anlamanın müxtəlif tiplərindən asılı olaraq metod və üsullar da müxtəlif olur.**

- **Spesifik dinləmə zamanı** tələbələr cavabını bilmək istədikləri məlumat haqqında spesifik suallar verirlər. “Sual-cavab ( Questioning ) ”, “Səhvi tap  (Find the mistake )”, “Məndən sonra de”  (Repeat after me ) , “İnformasiya  boşluqları ( İnformation\Fact  gaps”, “Fərqi tap  (Find the difference ) ”və s.
- **İntensiv dinləmə** odur ki, tələbələr müəyyən məlumat əldə etmək üçün hansısa bir mühazirəyə qulaq asırlar və ya müəllim tərəfindən səsləndirilmiş hekayəni dinləyirlər.
- **Ekstensiv dinləmə** zamanı isə tələbələr disk, CD üzərində olan çalışmalara, musiqi parçalarına və ya radioda hər hansı bir hekayəyə qulaq asırlar.

- Dinləmənin mahiyyəti odur ki, müəllim hər hansı bir situasiyanın əsas ideyasını  öyrənmək istəyir. Bu zaman aşağıdakı texnologiyalardan istifadə olunması faydalı hesab  edilir:
- İnformasiya boşluqları  ( İnformation gaps )
- Fiziki hərəkətə çağırış  ( Silent movie )
- Məndən sonra de  ( Repeat after me )
- Səhvimi düzəlt  (Correct my mistake )
- Şəkilli imla  (Pictorial Spelling )
- Musiqili imla (Musical spelling)
- Yarımçıq hekayə  ( Uncompleted story )
- Təsvir et və şəklini çək  ( Describe and draw )
- Zəncirli hekayə  ( Chain story )
- Səhvlərlə hekayə  ( A  story with mistakes )
- Auksion ( Auction)

# Danışma fəaliyyəti  (Speaking )  üzrə istifadə edilə biləcək metod və üsullar

**Danışma fəaliyyəti vərdişləri xarici dildə kommunikasiya yaradaraq axıcı, bəsit və uyğunluğu ilə tələbələrə sərbəst düşüncə və güc verir. Düzgün, səliqəli danışıq dilində tələbələr lüğət və qrammatikanı düzgün işlətməli, qarşılıqlı düzgün əlaqə yaratmalı, dəqiq vaxt müəyyənləşdirməlidirlər. Axıcı danışıq (Fluent speech )  isə əksinə, heç bir vaxt qoymadan, qrammatik və lüğət düzgünlüyünə əsaslanmayan, sürətli danışıq dilidir. Bu gün hər bir müəllim  tələbələrdə əvvəlcə səliqəli, düzgün, sonra axıcı danışıq vərdişlərini aşılamalıdır. Burada fəaliyyət növü və tələbənin səviyyəsi də nəzərə alınmalıdır.**

- *Danışma fəaliyyəti ilə bağlı texnologiyalar aşağıdakılardır:*

- “Cütlükdə düşün və paylaş” (Think in pairs and share )
- “Daxildə və xaricdə”  (İnside and outside circle )
- “Rollu oyun” (  Role play )
- “Söhbət kartları” (Conversation cards)
- “Müsahibə” (Interview )
- “Müzakirə” (Discussion)
- “Mətbuat“ (Press)
- “Debat“ (Debate )
- “Dialoq“ (Dialogue )
- “Şəkillərin təsviri“  ( Description )
- “İnformasiya boşluqları“  (Information \fact gap)
- “Dəyirmi masa“ (Roundtable discussion )
- “Dairəvi söhbət “   (Circular conversation)  və s.

# Qeyri-standart metodlar

- ***Şəkillərlə suallar və komanda  ( Picture questioning and commands )***
- ***Şəkilli hekayə  ( Pictorial story )***
- ***Səhvimi tap ( Find my mistakes )***
- ***Müzakirədə olan obyektlərin rəsmini çəkmək  (  Draw the discussed objects)***
- ***Söz assossasiyaları (Word associations)***
- ***Cümlələri şəkillərlə uzlaşdırmaq ( Match the pictures )***
- ***Obyektləri şəkillərdə seçmək (Choose the objects )***
- ***Rollu oyun (Role play )***
- ***Fərqi tap (Find the difference )***
- ***Şifahi təsvirdən obyektlərin adlarını tapmaq (What am I talking about ….? )***
- ***Tap görüm kim …  (Guess who….. )***
- ***Bitməmiş hekayə (Uncompleted story )***
- ***Müsahibə (Interview )***
- ***Debat  (Debate )***
- ***Şifahi təqdimatlar  (Oral presentations)***
- ***Mətnlərdə problemin həlli  (Problem solution )***

## *Oxu (Reading )fəaliyyəti üzrə istifadə edilə biləcək metod və üsullar*

- **Oxu nitq fəaliyyətinin növlərindən biridir. Oxu zamanı tələbələr bilik qazanmaq həyatı öyrənmək, asudə vaxtını səmərəli keçirmək üçün onun imkanlarından istifadə edirlər. Sinifdə oxu məlumatverici xarakterdə olmalı, açar sözlər (Key words )tapılmalı, tələbə əsas ideyanı başa düşərək oxumalı və mənanı anlamalıdır. Oxu prosesində**

**Qarışıq hekayə ( Scrumbled story )**
**Səhv-düz cavablar (True-false )**
**Bəli-xeyr cavablar (Yes-No )**
**Başlıq seçmək (Best title )**
**Cümləni tamamlamaq(Complete …)**
**Xüsusi suallar vermək ( Special questions )**
**Sinonim və ya antonimi tapmaq (Close and opposite meanings )**
**Səhv fikirləri tapmaq (Find the mistakes ) və s. kimi texnologiyalardan istifadə olunur.**

# *Yazı ( Writing ) fəaliyyəti üzrə istifadə edilə biləcək metod və üsullar*

- *Yazı daha ciddi və dilin qanunlarına tabe olan bir fəaliyyət növü kimi başa düşülür. Tələbələr yazı vasitəsilə öz fikirlərini daha geniş ifadə edirlər, qrammatik modellərdən vəbirləşmələrdən istifadə edərək eşitdiklərini düzgün yazırlar. Sərbəstliyi, plan tərtib etməyi, yeni proyektlər qurmağı, müxtəlif yazı nümunələrini tərtib etmək bacarığını əldə edirlər. Yazı fəaliyyəti texnologiyaları bunlardır:*

- **Təsviri yazılar ( descriptional writing )**
- **Hekayə, nağıl və şəkil üzrə yazılar (Stories, fables and picture essays)**
- **Analitik yazılar (Analytical writings)**
- **Arqumentli yazı (Argumentative writing)**
- **Layihə yazıları ( Project posts)**
- **Məktublar (Letters)**
- **Məruzələr (Reports )**
- **Əməli yazılar ( Practical articles)**
- **Üç əlaqəsiz əşya (Three unrelated things)**
- **Səhvlərlə yazı (Passage with mistakes \Mistake detector )**
- **Cümlə tamamlama (Complete the sentence ….)**




***Bütün bu metod və üsullar seçilərkən tələbələrin bilik səviyyələri və potensialları nəzərə alınmalıdır. Təlimin səmərə və keyfiyyəti metodların düzgün seçilib tətbiq edilməsi ilə sıx bağlıdır.***

***Qeyri-səmərəli metodlarla yüksək təlim-tərbiyə nəticələrinə nail olmaq mümkün deyildir.***




**DEVELOP TOGETHER ,EDUCATE BETTER……**

**Birlikdə inkişaf edək, daha yaxşı təhsil verək….**